# MƏMMƏDKAMAL KAZIMOV VƏ TEATRLARIMIZ

***Bütün həyatı, varlığı ilə sevib-seçdiyi sənətə bağlanan, onu özü üçün ideala çevirən, gecəli-gündüzlü onun şirinli-acılı dəqiqələri, saatları ilə pərvəriş tapan sənətkarlardan biri də Azərbaycanın əməkdar mədəniyyət işçisi Məmmədkamal Kazımovdur. Ömrünün 50 ilini səhnəyə həsr edən Məmmədkamal həvəskar aktyorluqdan professional rejissorluğadək çətin və şərəfli bir sənət yolu keçmişdir.***

Hələ kiçik yaşlarından teatra, səhnəyə böyük maraq 15 yaşlı Məmmədkamalı 1944-cü ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının nəzdindəki aktyor hazırlayan studiyaya gətirib çıxarır. Studiyanı müvəffəqiyyətlə bitirən M.Kazımov elə həmin teatrda qalıb aktyor kimi fəaliyyətə başlayır. «Vaqif»də gürcü Şaliko, «Qaçaq Nəbi»də Surxay, «Ölülər»də Cəlil rolları teatrda Məmmədkamalın ilk və uğurlu addımları olmuşdur. Səhnə vurğunu olan M.Kazımov teatrda müxtəlif xarakterli, müxtəlif səpgili obrazlar yaratmaqla yanaşı, həm də M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq və rejissorluq fakültəsini də bitirmişdir. İnstitutda A.İsgəndərov, M.Məmmədov kimi təcrübəli müəllimlərdən dərs alan, teatr sənətinin incəliklərini, səhnə sirlərini mənimsəyən gənc Məmmədkamal «Almaz», «Solğun çiçəklər», «Vaqif», «Ölülər», «Xəyyam», «Mahnı dağlarda qaldı» tamaşalarının ikinci rejissoru olmuşdur.

Lakin qətiyyətlə demək olar ki, aktyor-rejissorun istedadı Bakıdakı Xətai adına mədəniyyət sarayının dram dərnəyində parlamış, nəyə qadir olduğu məhz bu kollektivdə özünü daha aydın büruzə vermişdir. Belə ki, 1960-cı ildə dram dərnəyinə rejissor dəvət edilən M.Kazımov elə ilk günlər kollektivinin qüvvəsindən bacarıqla istifadə edərək biri-birindən maraqlı tamaşalar hazırlaya bilmişdir.

Onda həvəskar aktyorlarla işləmək, hər kəsin hansı əsərdə hansı rolda çıxış edəcəyini müəyyənləşdirmək qabiliyyəti çox güclüdür. Odur ki, Ə.Haqverdiyevin «Dağılan tifaq» əsərinin rol bölgüsü o qədər də mübahisəyə səbəb olmadı. Kimin hansı rolda çıxış edəcəyini kollektivin bütün üzvləri razılıqla qarşıladı. Bizcə həmin əsərin böyük müvəffəqiyyət qazanmasında ilkin şərtlərdən biri də elə hər bir həvəskarın yaratdığı rolda, necə deyərlər, özünü tapması oldu. Əlbəttə, bununla biz tamaşanın uğurunda digər vacib məsələləri – səhnə mizanlarını, dekorasiyasını, tərtibatı, işıqdan istifadəni, musiqi parçalarının səslənməsini və digər mühüm amillərin əhəmiyyətini heç də kiçiltmirik. Şübhəsiz, bütün bunların nəticəsidir ki, «Dağılan tifaq» faciəsinin tamaşası münsiflər heyətinin yekdil rəyi ilə yüksək qiymətləndirilərək dram dərnəyinə S.Vurğun adına xalq teatrı adı verildi.

İstedadlı və əməksevər kollektivin tərcümeyi-halında bu uğur bir də onunla əlamətdardır ki, dərnək üzvləri bu şərəfli ada respublikada ilkin layiq görülənlər cərgəsindədir. Şübhəsiz, dram dərnəyinə xalq teatrı adı verilməsində bütün həvəskarların əməyi, zəhməti vardır. Lakin müvəffəqiyyət ilk növbədə quruluşçu-rejissor Məmmədkamal müəllimin adı ilə bağlıdır. Həmişə yeniliyə can atan, axtarışlar aparan bacarıqlı rejissorun əzmkarlığı, tükənməz enerjisi, gərgin əməyinin bəhrəsi idi bu nailiyyət.

«Şöhrət şöhrət gətirər» - deyənlər bu hökmü verməmişdən qabaq yəqin ki, nəyəsə əsaslanmışlar. Məmmədkamal müəllimin rejissor olduğu bu kollektiv ilk uğurdan ruhlanaraq daha qətiyyətli addımlar atdı. Bir-birinin ardınca müvəffəqiyyətlə tamaşaya qoyulan «Eşq və intiqam», «Laçın yuvası», «Xırs-quldurbasan», «Hacı Qənbər», «Sevil», «1905-ci ildə», «Solğun çiçəklər», «Vaqif», «Fitnə» və s. əsərlərin hesabına xalq teatrı öz repertuarını daha da zənginləşdirirdi.

Teatrın repertuarında klassik əsərlərlə yanaşı, müasir yazıçı və dramaturqların pyeslərinə, eləcə də tərcümə əsərlərinə də tez-tez rast gəlinir. Zəngin təcrübə, rejissor bacarığı və səriştəsi Məmmədkamal müəllimdə müasir yazıçıların pyeslərinə müraciət edərkən özünü xüsusilə göstərir. S.Rüstəmin «Qaçaq Nəbi», S.Axundovun «Anaların səsi», Q.Rəsulovun «Əmim və mən», «Üç günün komediyası», «Bir Volqa məhəbbət», Ş.Fərzəliyevin «Sən tək deyilsən», İ.Səfərlinin «Yol ayrıcında», M.Atəşin «Sadıq və Rəna», Ə.Hacıyevin «Qırmızı dalğalar», İ.Əfəndiyevin «Unuda bilmirəm», M.Hüseyn və İ.Əfəndiyevin «İntizar», A.Hüseynzadə və C.Bərgüşadın «Nənəmin sandığı» və digər əsərlər həvəskar

aktyorların ifasında tamaşaçılar tərəfindən hər dəfə böyük maraqla, sevinclə qarşılanır.

Xətai rayonunun əməkçilərinin mədəniyyət sarayında xalq teatrı üzvlərinin qüvvəsi ilə tamaşaya qoyulan tərcümə əsərlərinə də böyük maraq göstərirlər. Sevimli tamaşaçıların zövqünə yaxından bələd olan quruluşçu rejissor M.Kazımov dünya ədəbiyyatından ən yaxşı nümunələrə də vaxtaşırı müraciət edir. Məhz bunun nəticəsidir ki, teatrın repertuarında M.Qorkinin «Həyatın dibində», Lermontovun «Demon», Mitrafonovun «Barışdılar», Qansovskinin «Mənimlə yanaşı», habelə rumın yazıçısı Ş.Xarlambın «Evlənmə və boşanma» pyesləri də mühüm yer tutur.

Bir vaxt Mədəniyyət Nazirliyinin və xalq yaradıcılığı evinin elə bir tədbiri olmurdu ki, bu xalq teatrı orada iştirak etməsin, mükafata layiq yerlərdən birini tutmasın. Hər il keçirilən «Teatr baharı» baxış-müsabiqələri də bu deyilənləri təsdiq edir. 1978-ci ildə isə Məmmədkamal müəllimin Azərbaycanın əməkdar mədəniyyət işçisi kimi şərəfli bir ada layiq görülməsi daha fərəhləndirici, daha yaddaqalandır.

Onu da deyək ki, M.Kazımov bir müəllim kimi də gənclərin səhnə vərdişlərinə yiyələnməsi işinə böyük əmək sərf edib. Neçə illər M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda və N.K.Krupskaya adına Kitabxanaçılıq Texnikumunda tələbələrə səhnə danışığı, aktyor sənəti və səhnə texnikasından dərs deyib, onları seçdikləri sənətin incəlikləri ilə yaxından tanış edib. Kino səhnəsindəki fəaliyətini də bura əlavə etsək o zaman aktyor – rejissor və müəllim Məmmədkamalın çoxcəhətli yaradıcılığa malik olduğunu aydın görərik.

*Bəs M.Kazımovu bir rejissor kimi səciyyələndirən cəhət nədir?! Bizcə, hər şeydən əvvəl yazıçı materialına hörmət, ona diqqətlə yanaşmaq, hər bir aktyorun nəyə qadir olduğunu duymaq bacarığı, həvəskar gənclərə inamı! Tamaşaçıların mənəvi tələbatını, marağını nəzərə almaq, onlara nəsə yeni söz demək, zövqünü oxşamaq; bütün bunlar sənətin ən ümdə, ən vacib məsələləridir.*

***Ağalar Bayramov,***
***əməkdar artist***

Ədəbiyyat

1. M. Məmmədov. Rejissor sənəti. B. "Maarif", 1971.

2. B. Zaxava. Aktyor və rejissor sənəti. B. Maarif, 1984.